# İnternet mühitində ana deyimləri

**Günay Mətləb qızı Həsənova**
*AMEA Folklor İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** gunay_yusifzade@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. F.X. Bayat,
filol.ü.f.d., dos. Ç.A. Əfəndiyeva

**Açar sözlər:** internet mühiti, ədəbiyyat, analar sözü,sosial şəbəkə, ifadələr, ana deyimləri, ünsiyyət

**Ключевые слова:** интернет-среда, литература, материнские слова, социальная сеть, выражения, материнские выражения, общение

**Key words:** internet environment, literature, mother words, social network, expressions, mother expressions, communication

Şifahi xalq ədəbiyyatımızın ən zəngin, ən maraqlı eyni zamanda əxlaq kodeksi kimi qəbul edilən atalar sözləri hər zaman gündəlik istifadə etdiyimiz və daha çox yararlandığımız nümunələr sırasında olması danılmaz faktdır. Bu janrın nümunələrinin hazırda elektron mühitdə də yaranması müsbət haldır. Bu məqalədə analara məxsus deyim və ifadələrlə bağlı araşdırma aparılmışdır. İnternet mühitində yaranan analara aid sözlər, deyimlərə dair çoxlu sayda nümunələrə rast gəlinir. Belə nümunələrin əksəriyyətinin məqalədə təqdim edilməsi ilə hansı fikir və meyarın hədəfə alınması ilə bağlı fikirlər əsaslandırılmışdır. Analar sözü və deyimlərin hansı gücə malik olması, hansı məqamlarda istifadə edilməsi ilə bağlı məqamların açıqlanması da maraq doğurur.

Atalar sözləri və deyimlər konkret bir məsələ ilə bağlı yaranır və özündə ibrətamiz məna, dolğun fikir və əxlaqi mənəvi keyfiyyətlərin aşılanması ilə bağlı məsələləri özündə əks etdirir. Atalar sözlərinin semantikasında hansı mahiyyət və mənanın dayanması, hökmün qəti şəkildə ifadə edilməsi, uzun əsrlərdən bəri əsrin sınağından çıxmış fikir və müşahidələrin yekunu kimi bitmiş formada təqdim edilməsi əsas xrakterik cəhətlərdən biri olduğunu bilirik. Atalara məxsus olan sözlərin hər mövzu ilə bağlı mövcudluğu onların daha aktiv işləkliyə malik olması da aydındır. Yəni biz istər siyasi, istər iqtisadi, istər mədəni, istərsə də məişət mövzularına qədər ataların dərin məzmunlu müdrik kəlamları sırasında istənilən məzmunlu məsələlərə dair maraqlı nümunələr vardır. Belə ki, hər bir nümunə mütləq şəkildə bizə öyüd-nəsihət verməklə, çətin vəziyyətdə necə davranmaq lazım olduğuna dair yol göstərir. Lakin atalar sözlərindən fərqli olaraq, analar sözləri demək olar ki, heç araşdırılmayıb, toplanmamışdır. Analar sözlərinə biz internet mühitində, sosial şəbəkələrdə, forum və bloqlarda rast gəlinir. Bu sözlər birbaşa ana tərəfindən övlada xitab şəklində yaranmışdır. Onların özünəməxsusluğu da birbaşa övlada aid edilməsi ilə bağlıdır. Analar sözləri adı altında təqdim edilən nümunələrin hamısı hər birimiz üçün çox doğma ifadələrdir. Çünki bu ifadələri demək olar ki hər gün eşidirik. Hətta yaşın neçə olmasından asılı olmayaraq biz valideynlərimiz, əsasən də analarımız üçün hələ də uşaq kimi görünürük.

İnternet mühitində anaların dilindən təqdim edilən həmin ifadələri qeyd edirik:

"Söndür də tay o kompüteri", "Az otur kompüterin qabağında", "Yemək yemisən?", "Betonun üstündə oturma", "Tikəni saxlama, bunu da ye", "Qaçma, tərləyərsən", "Çayxanaya ni-

yə gedirsən? Evdə çay yoxdur?”, “Ehtiyatlı ol”, “Evlən, mən də narahat qalmayım səndən”, “Evə çörək al”, “Ayağına corab geyin”, “Qalın geyin”, “Ölsəm canınız qurtarardı, sevinərdiniz yəqin”, “Səhərdən işləyirəm, yemək bişirmişəm, evi yığışdırmışam, ölürəm”, “Siz yeyin, yatın”, “A bala get dərsini oxu, vallah özümə görə demirəm, sənə görə deyirəm, işləyib qazananda mən yadına düşməyəcəm heç”, “Başı var amma oxumur”, “Sənə gələn bədbəxt olacaq”,  “Atan gəlsin deyəcəm”, “Bu gün-sabah sən də ana (yaxud ata) olanda görəcəm”, «Mən beş dəqiqəlik qonşuya gedirəm, sən yarım saat sonra yeməyin altın söndür», “Dur otağı yığışdır, birdən evə qonaq zad gələr”, “Dur, saat 12 oldu” (Amma hələ saat 9-dur), “Dərinə getmə batarsan” (dəniz mövsümündə) (3).

İnternet mühitində yaranan anaların dilindən təqdim edilən deyimlərin təcəssüm olunma vasitəsi rəngarəngdir. Belə ki, həm söz şəklində, həm də yazılı şəkillər formasında yaradılan nümunələri “@analar sözü” başlığı adı altında internet vasitəsilə axtarış edib tapmaq mümkündür. Folklor mahiyyətli bu nümunələri sevdirən cəhət onları nəzərdən keçirən zaman üzdə təbəssüm dolu mimikanın yaranmasıdır. Övladı anadan daha çox sevən, onu qoruyan başqa birinci məxluq olmadığını hər birimiz bilirik. Onlar nə qədər aqressiv olsalar da dillərindən çıxan hər acı sözün belə ürəkdən deyilmədiyinə əminik. Təqdim edilən bu nümunələrin bəzilərində, onların dilindən verilən ifadələrdə acı söz olsa da, bu sözlərin özündə də bir doğmalıq olduğunu hiss edirik. “Hər işləyən kişi olmaz, hər doğan ana olmaz” atalar sözü ilə əmin oluruq ki, ana kimi müqəddəs varlığın təkcə övlad dünyaya gətirməklə deyil, bu möhtəşəm hisslər yalnız övladla münasibətdə bəlli olur.



Nümunə 1.



Nümunə 2.



Nümunə 3.



Nümunə 4.



Nümunə 5.



Nümunə 6.



Nümunə 7.



Nümunə 8.



Nümunə 9.



Nümunə 10.



Nümunə 11.



Nümunə 12.

Analar dilindən təqdim edilən deyimlərin mövzu baxımından analizi göstərir ki, onların hamısı övlada xitab edildiyindən, mövzu cəhətdən də onların sağlamlığı, tərbiyəsi, gündəlik həyat tərzi, gələcəyi, qidalanması, qız övladlarının milli-mentalitet yönümlü böyüdülməsi, mental dəyərlərin, mənəvi-əxlaqi, müsbət keyfiyyətlərin aşılanması, və bu fonda birbaşa onlara aid olan məsələlərdir. Övladlarının sağlamlıq durumu anaları narahat edən ən ümdə məsələlərdən biridir. Buna görə də deyimlərin əksəriyyəti də məhz belə məzmunlu ifadələrdir. 1-ci

"Tərli-tərli su içmə" və 8-ci nümunədə "Get saçıvı qurut! Meningit olassan yetim, bax baxmayacam ha sənə, sənə nəsə olsa üstündən də mən tapdayacam" və ya "Ayağına corab geyin", "Papağını geyin, miningit olacaqsan", "Qalın geyin" kimi ifadələr məhz onların narahatlıq duyumları ilə bağlıdır. Eyni zamanda onu da qeyd etməliyik ki, bəzən analar "xəstələnsən baxmayacam" kimi ifadələr işlətməsini sanki psixoloji təsir etmək ilə əlaqələndirmək olar. Qızı olan ana daima onun ailə qurduqdan sonra iş bacarmayacağı ilə bağlı narahatlıq keçirir və hətta qızını bacarıqsız kimi təqdim edən situasiyalara da rast gəlmək mümkündür. Sonuncu bu situasiyanı milli mentalitet dəyərlər və adət-ənənələrimizlə əlaqələndirib qeyd etməliyik, el ağsaqqalı Dədə-Qorqud da qızın tərbiyəsinin ana ilə bağlı olduğunu "Qız anadan görməyincə öyüd almaz" deyimi ilə təsdiq etmişdir. Belə ki, qız işgüzarlığı, əxlaqi mənəvi dəyərləri məhz anasından öyrənər. 5-ci nümunədə "Bütün analar qızları gəlin köçəndə ağlayırlar, anam deyir ki, mən yox, səni alan ağlayacaq", nümunə 6-da və 7-də "Sabah arvad olanda da belə olassan", Kül başına məndən olub mənə oxşamaz" və ya 9-cu nümunədə "Səhər birigün üstümə qaytaracaqlar kı, qızın iş görmür", "Sənin yaşında ev də süpürürdüm, qabda yuyurdu, evdə də tikirdim, inqlab da edirdim" kimi deyimlərdə ananın qızının iş görməməsi ilə nigaranlığı əks olunmuşdur. Bu ifadələr hər bir qız üçün tanış situasiyadır və bu deyimlərin milli koloritliyi onların hər kəsin üçün doğma olmasındadır. 3-cü nümunədə isə "Sənin taylarının bağçaya gedən uşağı var" ifadəsi ilə qızını tez ərə vermək istəyən anaların istəyi üstüörtülü şəkildə təqdim edilmişdir. "Dur otağı yığışdır, birdən evə qonaq zad gələr" və ya nümunə 12-də təqdim edilən "Qonaqlar gedənnən sonra yeyərsən" ifadələri anaların ümumiyyətlə Azərbaycan xalqının qonaqpərvərliyi, qonağa olan hörmətin bir daha sübut edən amillərdəndir.

Ana deyimlərinin əksəriyyəti hər hansı situasiya ilə əlaqədar yaranır. Analar üçün bütün dərdlərin mənbəyi kompüterdir. "Söndür də tay o kompüteri", "Az otur kompüterin qabağında", "Səhv səndə deyil, sənə o telefonu alandadı" və ya nümunə 10-da təqdim edilən "Bütün günü kimnən yazışırsan o telefonla" kimi analar tərəfindən işlədilən ifadələrdə məqsəd məhz kompüter və telefonun ziyanlı olmasını, bütün zərərlərin kompüterlə gəlməsini dönə-dönə işlətməklə övladlarını sağlam böyütməyə nail olmaq istəyidir.

"Tikəni saxlama, bunu da ye", "Yemək yemisən?" və ya 4-cü nümunədə "Mama doydum, yemirəm. Çörəksiz ye" kimi ifadələrlə anaların övladlarının hər zaman ac olmağından narahatlığının bariz nümunəsidir.

Nümunə 2-də verilən "Harda atmısan, orda da axtar" deyimi evdə hər hansı əşyanın yerini tapmayanda hər zaman eşitdiyimiz ifadədir. Nümunə 11-də isə "Məhlə futbolunda final fitini həmişə topun yiyəsinin maması çalırdı. O nə vaxt uşağını çağırdı, oyun bitirdi" deyimi isə daha çox oğlan övladlarının rastlaşdığı situasiyadır.

Analar sözlərinin internet vasitəsilə axtarışı zamanı, İnstagram sosial şəbəkəsində "analarsozu_" və analarsozu", facebook sosial şəbəkəsində isə "xoş dəqiqələr" səhifələrində anaların dilindən təqdim edilən söz, ifadə və deyimlərə aid kifayət qədər maraqlı nümunələr paylaşılmışdır. Sosial şəbəkələrdə paylaşılan analar deyimi yazılı şəkillər vasitəsilə təqdim edilir. Bu şəkillər dünya şöhrətli rəssamların əsərləri sırasındadır, şəkillərin əksəriyyəti isə XIX əsrin neoklassisizm cərəyanının nümayəndəsi ingilis rəssamı John Viliam Godvarda aiddir.




Nümunə 13.




Nümunə 14.

İnternet mühitində anaların dilindən təqdim edilən deyimlərin bir çoxu "xalxın uşağı", "camaatın uşağı" sözləri ilə başlayır. Real həyatda da hər bir övladın başqalarının, xüsusilə qonşuların uşaqları ilə müqayisə edilməsinə çox rast gəlinir. 13 və 14-cu nümunələrdə "Camaahatın uşağı kitab oxuyur, bizimki gün axşamacan telefon oynadır" və ya "Deyirlər yaxşı oğlandı, işi, maşını, evi daha nə olsun ki, bir gör bax bəlkə bəyənəcəksən" kimi nümunələr milli ab-hava, milli mental dəyərlər fonunda yaradılmışdır. "Xalxın uşağı 700 bal yığır, sən 100 bal güclə yığırsan", "Camahatın uşağı oxuyur, mənimki veyllənir küçələri" kimi nümunələr də anaların səsləndirdiyi, ən çox istifadə etdiyi ifadələr sırasındadır.

Bu gün internetin populyarlaşması və müvafiq olaraq internet istifadəçilərinin sayının çox sürətlə artması, eləcə də texnoloji sferada yeni imkan və resursların ortaya çıxması və bunların gündəlik məişət həyatına təsiri insanların həyat rejiminə dərindən siraət etməyə başlamışdır. İnsanlar üzbəüz ünsiyyətdən online kommunikasiyaya keçməyə başlamışlar. Real, üz-üzə ünsiyyətə əsaslanan ənənəvi folklor yaradıcılığı proseslərindən fərqli olaraq, virtual folklor proseslərinin faktoloji bazası daha çox sosial medianın hesabına ödənilir. (2,5)

Bronnerin qeyd etdiyi kimi, internet ənənələrin meydana çıxdığı və ya yarandığı ayrıca bir məkan və ya sahə kimi özünü göstərir. (1, s. 22). Hər bir kəs üçün tanış və doğma olan anaların dilindən eşitdiyimiz ifadələrin, deyimlərin internet mühitində daha da aktivləşməsi və sosial şəbəkələrdə belə tipli səhifələrin yaradılması müsbət qəbul edilən məqam kimi dəyərləndirilməlidir. Bu ifadələrin kollektiv şəkildə doğma qəbul edilməsi onun folklor mahiyyətli olmasını təsdiq edir. Ona görə də belə deyimlərin də toplanması, araşdırılmasının davam etdirilməsi zəngin irsimizin qorunub saxlanılmasına xidmət edəcəkdir.

**Məqalənin aktuallığı.** Günümüzdə xalq ədəbiyyatı nümunələri sırasında ana deyimləri ilə bağlı araşdırma aparılmamış və bu sahədə mövcud nümunələr hər hansı aspektdən təhlil edilməmişdir. Bu səbəbdən atalar sözləri kimi məşhur olan bir janr sırasında ana deyimləri, ana sözlərinin təhlil olunması tədqiqatın aktuallığı hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Ana deyimlərinin internet mühiti üzərindən araşdırılması bu gün çağdaş folklorun inkişafı baxımından xüsusilə diqqətə layiqdir. Bu səbəbdən nümunələr əsasında virtual folklorla ənənəvi folklorun qarşılıqlı əlaqəsini araşdırmaq tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat ana deyimlərinin araşdırılması yönündən praktiki əhəmiyyətə malikdir. Araşdırma istər sosial, istərsə də internet folkloru sahəsində yeni materialı kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Bronner, Simon J. Digitizing and Virtualizing Folklore. Folklore and the İnternet. Utah State University Press, Logan, Utah, 2009.

2. Folklorun funksional strukturu, multidissiplinar kontekst, Sərxan Xavəri, Hikmət Quliyev, Səfa Qarayev, Bakı-Elm və təhsil, 2016.

3.https://feat.az/foto/diger-sekiller/22733-ana-sozleri-yoxdur-geyin-bedbext-komputerin-deyirler-ishleyib-sonra-qeder-analar-eslinde-heqiqeten-bashi-oxumur-adamlar-sherhsiz-valideynlerini-salmir-qazanandan-gelen-gelsin.html

**Г.М. Гасанова**

## Заявления о словах матери в интернете

## Резюме

Неоспорим тот факт, что пословицы, которые считаются самыми богатыми, интересными и в то же время этическим кодексом в нашей устной народной литературе, всегда входят в число примеров, которые мы используем каждый день, и используем их чаще всего. Положительным моментом является то, что примеры этого жанра теперь доступны в электронной среде. В этой статье рассматриваются выражения и выражения матерей. Есть много примеров слов и высказываний о матерях, которые появляются в Интернете. Большинство таких примеров представлено в статье, которая обосновывает взгляды и критерии, на которые ориентирована целевая задача. Также интересно объяснить силу слов и выражений матери и точки, в которых они используются.

**G.M. Hasanova**

## Statements on mothers words on the internet

## Summary

It is an undeniable fact that proverbs, which are considered to be the richest, most interesting and at the same time the code of ethics in our oral folk literature, are always among the examples we use every day and use them the most. It is a positive thing that examples of this genre are now available in the electronic environment. This article examines the expressions and expressions of mothers. There are many examples of words and sayings about mothers that appear on the Internet. The majority of such examples are presented in the article, which substantiates the views and criteria on which the target is targeted. It is also interesting to explain the power of mother's words and expressions, and the points at which they are used.

**Redaksiyaya daxil olub:** 05.05.2120